BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2010*

# VYANA DANIŞIQLARINDA KİPR PROBLEMİNİN MÜZAKİRƏSİ

**S.C.HEYDƏROVA**
***Bakı Dövlət Universiteti***
***s_heydarova@mail.ru***

*Təqdim olunmuş məqalə 1975-ci ildə altı mərhələdə həyata keçirilən Vyana konfransının gedişinə və Kipr probleminin həlli istiqamətindəki səylərə həsr olunmuşdur.*

*Burada Kipr adasında yaşayan iki icma: kiprli türklər və kiprli yunanlar arasında gedən mübarizə, irəli sürdükləri qarşılıqlı tələblər araşdırılmışdır. Müəyyən olunmuşdur ki, adada sabitlik yaratmaq istəyən icmalar bir-birinə güzəştə getməməsi və etibar etməməsi ucbatından problemin həllinə nail ola bilməmişlər.*

Kipr adasında yaşayan türk icmasının 1963-1974-cü illərdə məhv edilməsinin qarşısını almaq məqsədilə Türkiyə bir təminatçı dövlət kimi 1959-cu ildə imzalanan London müqaviləsinin 4-cü maddəsinə əsaslanaraq 20 iyul 1974-cü il tarixində birtərəfli qaydada Barış hərəkatını (1, 27; 2, 403; 3, 55) həyata keçirdi. ABŞ, Böyük Britaniya və Yunanıstan hökumətləri Türkiyənin bu addımına qəti etirazlarını bildirdilər. Maraqlı dövlətlər BMT-dən Kipr məsələsinin həllini tələb etdilər.

Məsələnin həlli ilə bağlı 1974-cü ildə London və Cenevrə konfransları da işə başladı. Böyük Britaniya, Türkiyə və Yunanıstan xarici işlər nazirlərinin iştirak etdiyi həmin konfranslar uğursuz nəticələndi. Bu səbəbdən problemin həllinə dair müzakirələr başqa çərçivələrdə davam etdirildi.

1975-ci ildən etibarən BMT Təhlükəsizlik Şurasının çağırışı ilə Kiprdə yaşayan türk və yunan icmaları arasında danışıqlara start verildi. Danışıqların 1975-ci il 28 aprel-3 may, 5-7 iyun və 31 iyun-2 avqust tarixləri arasında Vyana şəhərində həyata keçirilməsi nəzərdə tutuldu.

Vyana danışıqlarının birinci mərhələsi 1975-ci il aprel ayının 28-də başlandı. Danışıqlarda Kiprdə yaşayan hər iki – yunan və türk icmalarının nümayəndələri iştirak etdi. İclasda hər iki tərəfdən irəli sürülən təkliflərdə qurulacaq bir federativ dövlətin mərkəzi hökumətinin fəaliyyəti, ayrı-ayrı məsələlərin həlli ilə məşğul olmaq üçün xüsusi komitənin yaradılması, qaçqınların evlərinə dönmə məsələləri ön plana çəkildi. Bu məsələlərə dair konkret planların hazırlanıb irəli sürülməsi tövsiyə olundu.

Tərəflər BMT Baş katibinin Kiprdə xüsusi nümayəndəsinin köməyi ilə icmaların irəli sürəcəyi təklifləri nəzərdən keçirmək üçün ekspertlər komitəsinin yaradılması barədə razılığa gəldilər. Hər iki tərəfdən üç nümayəndənin daxil olacağı bu komitənin Vyana danışıqları qurtardıqdan sonra 3-4 həftə ərzində Kiprdə işləməsi nəzərdə tutuldu. Hər iki tərəf xaricdən ekspert dəvət etmək hüququna da malik oldu.

Mayın 3-də müzakirələrə son qoyuldu və problemlərin həllinin ikinci mərhələdə davam etdirilməsi nəzərdə tutuldu.

Yunanlar türklərin nəzarətində olan bölgələrdən haraya nə qədər qaçqın yerləşdirildiyinə və Türk Barış Qüvvələrinin hansı əraziləri boşaltdığına nəzarət edirdilər. Türklər isə Müvəqqəti Müştərək Federativ hökumətin qurulması və bir ortaq məxrəcə gəlinməsinin tərəfdarı idi.

Vyana danışıqlarının ikinci mərhələsi 1975-ci ilin 5-7 iyun tarixləri arasında həyata keçirildi. İkinci mərhələ əvvəlki problemlərin həll olunmaması və yarımçıq qalması ucbatından qənaətbəxş keçmədi. Kipr Türk Federativ dövlətinin rəhbəri R.Denktaş bu məqsədlə hazırladığı təkliflərini BMT Baş katibinin Kiprdəki xüsusi nümayəndəsi olan L.Vekmanın vasitəsilə 1975-ci il iyulun 18-də yunan Q.Kleridesə göndərdi.

R.Denktaşın Müvəqqəti Müştərək Federativ hökumətin yaradılması ilə bağlı irəli sürdüyü təkliflər aşağıdakılardan ibarət idi: əslində iki milli icmanın birgə quracağı Kipr Respublikası müstəqil, ərazisi bütöv və iki hissədən ibarət federativ bir dövlət olmalı; iki icma hər sahədə müstəqil haqq və səlahiyyətə sahib olmalı; Kipr bütünlüklə və ya qismən də olsa, heç bir şərt altında hər hansı bir başqa dövlətlə birləşməməli; bitərəf siyasət aparan Kipr Federativ Respublikası "Bloksuz dövlətlər" arasında öz yerini almalı; Kiprin müstəqilliyini və təhlükəsizliyini zərbə altına alan hər bir fəaliyyətin qarşısını almaq üçün bütün lazımi tədbirlər görülməli; iki milli icma özünün dini, mədəni və adət-ənənələrinə sadiq qalmaqda və bunları demokratik yollarla inkişaf etdirməyində tam sərbəst olması irəli sürülürdü. Din tamamilə federativ dövlətin səlahiyyətindən xaricdə qalmalı; beynəlxalq aləmdə iki icmanın bir-birinə qarşı hər növ düşmən münasibətləri qadağan olunmalı; iki icma arasında sülh və əməkdaşlığın inkişaf etdirilməsi də təmin olunmalı idi (6, 45).

İrəli sürülən təkliflər çərşivəsində Müvəqqəti Müştərək Federativ hökumətin Kiprin yunan və türk icma liderlərinin aşağıda göstərilən funksiyaları birgə həyata keçirməsi nəzərdə tutulmuşdu: Müvəqqəti Müştərək Federativ hökumət Kipr Respublikasının beynəlxalq məsələlərini və münasibətlərini hər iki icmanın milli, təməl haqq və öhdəliklərini tamamilə qoruyacaq tərzdə tənzimləyib irəli sürməli; Kipr Respublikasının beynəlxalq münasibətlərini inkişaf etdirməli, vahid Xarici İşlər Nazirliyi, hər iki icmanın ərazilərində isə Maliyyə, Nəqliyyat, Səhiyyə nazirlikləri qurulmalı idi; Prezidentin səlahiyyəti ilə bağlı məsələlər isə iki icmanın rəhbərləri arasında qərarlaşdırılmalı idi; Kipr Federativ Respublikası Konstitusiya mövzusunda və iki milli icma arasındakı çeşidli sosial və humanist mövzularda və ayrıca iki bölgə arasında birgə katiblik də qurulmalı idi; Müvəqqəti Müştərək Federativ hökumətin səlahiyyətləri Federativ Kipr Respublikası konstitusiyası hazırlandıqdan sonra konstitusiya hökmlərinə uyğun şəkildə nəzərdən keçirilməli və müzakirə olunmalı idi; Müvəqqəti Müştərək Federativ hökumətin bütün məsrəfləri iki icma arasında bərabər şəkildə paylaşmalı idi (8, 273-274).

1975-ci il iyulun 22-də humanitar məsələlərin müzakirəsinə dair Q.Klerides və R.Denktaş arasında danışıqlar aparıldı. R.Denktaş BMT Baş Katibinin Kiprdəki xüsusi nümayəndəsi vasitəsilə yunan tərəfinə Kiprin gələcək Mərkəzi hökumətinin vəzifə səlahiyyətləri haqqında təklifləri təqdim etdi.

Elə həmin gün Makariosun sədrliyi ilə Milli Şuranın və Nazirlər Şurasının birgə iclası keçirildi. İclasda Kipr probleminə dair Vyana danışıqlarının üçüncü mərhələsində irəli sürüləcək məsələlər müzakirə edildi.

İcmalararası danışıqların üçüncü mərhələsi 1975-ci il iyulun 31-dən avqustun 2-dək keçirildi. Bu mərhələdə aparılacaq danışıqlarda önəmli bir addımın atılacağına da ümid bəslənilirdi. R.Denktaş və Q.Kleridesin iki hissəli bir federasiyanın yaradılmasına dair müzakirələrin Lefkoşada da davam etdirilməsinə qərar verildi.

Hər iki icma nümayəndələri layihələşdirilən sazişin ərazi mövzusunda dördüncü mərhələdən əvvəl görüşlər keçirmək və ərazi hüdudlarını göstərən xəritələri də müzakirə etmək istiqamətində razılığa gəldilər. İclasda, həmçinin Kiprdə qarşıdakı tək bir həlli yolunun ikibölgəliliyi olması təsdiqləndi və qəbul edildi. Lakin danışıqlardan sonra Klerides yunan tərəfinin şiddətli tənqidinə məruz qaldı. Klerides danışıqların dördüncü mərhələsindən əvvəl R.Denktaş ilə qərarlaşdırdığı görüşlərdə iştirak etmədi.

Vyana danışıqlarının üçüncü mərhələsində "Əhali mübadiləsi" adlanan saziş imzalandı. Bu saziş əsasında 1975-ci ildə adanın cənubunda qalan türklərin şimala, şimalda olan yunanların isə cənuba köçürülməsi prosesi həyata keçməli idi (6, 147). Sazişdə aşağıdakı məsələlər öz əksini tapırdı: hələ də adanın cənubunda qalan kiprli türklərin istədikləri təqdirdə tərtib olunmuş proqram əsasında və Kiprdəki BMT Sülhməramlı Qüvvələrinin himayəsi altında şimala keçə bilməsi; hələ də Kiprin şimalında olan kiprli yunanların şimalda qalmaq istəyi nəzərə alınırdı; onların təhsil, tibbi müayinə ilə təmin edilməsi də nəzarət altına götürülürdü, yunanlar şimalda hərəkət sərbəstliyinə malik olmalı, istədikləri normal həyatı sürə bilməli və hər cür yardımla təmin olunmalı idilər; hələ də şimalda olan kiprli yunanlardan öz istəkləri ilə heç bir təzyiqə məruz qalmadan cənuba keçmək iqtidarına malik olmalı; adı çəkilən sazişin həyata keçirilməsi ailələrin birləşdirilməsinə səbəb olmalı idi və s. (7, 48).

"Əhali mübadiləsi" sazişi BMT-nin 1975-ci il 5 avqust tarixli və 5/11789 saylı sənədində, sazişin BMT-nin nəzarəti altında həyata keçirilməsinə dair məlumat isə Baş katibin 1975-ci il 1 sentyabr tarixli və 5/11789 saylı sənədinin Ek-2, 4-cü bəndində yer aldı (5, 23-24).

1975-ci il avqustun 9-da Vyanada qəbul olunmuş saziş əsasında türklərin bir qisminin adanın şimalına köçürülməsi BMT-nin nəzarəti altında həyata keçirildi (4, s. 15). Avqustun axırlarında isə BMT Baş Katibinin xüsusi nümayəndəsi L.Vekman və türk və yunan icma rəhbərlərinin bilavasitə iştirakı ilə əhalinin köçürülməsinə dair müzakirələr davam etdirildi.

Vyana konfransının Kipr probleminin coğrafi tərəflərinin müzakirəsini özündə əks edən dördüncü mərhələsi 1975-ci il sentyabrın 8-də Nyu-Yorkda açıldı.

Yunan icmasının rəhbəri Makarios sentyabrın 9-da yeni bəyannamə ilə çıxış etdi. Bu bəyannamə "ikibölgəli bir əsas çərçivəsində" məsələnin həll oluna bilməyəcəyinə aid idi (7, 50). Tərəflərin fikir ayrılığı ucbatından konfrans öz işini çətinliklə davam etdirdi.

Dördüncü mərhələdə aparılan danışıqlar sentyabrın 10-da nəticə vermədən başa çatdı.

Türk icmasının lideri R.Denktaş Vyana danışıqlarının nəticəsiz bitdiyini görərək kiprli türklərin qurduqları dövlətin istiqlaliyyətini birtərəfli qaydada elan etmək niyyətində olduğunu bəyan etdi. Bu bəyanat yunanlar tərəfindən kəskin şəkildə tənqid olundu. Onlar kiprli türklərin bu addımından təşvişə düşdüklərini gizlətmədilər.

BMT-nin Baş Katibi Valdhaym icmalararası danışıqların keçirilməsinə yenidən başlamağı təklif edərək türk və yunan tərəflərinə müraciət etdi.

1975-ci il dekabrın 12-də türk və yunan xarici işlər nazirləri tərəfindən Brüssel sazişi imzalandı. Bu sazişin ilk maddəsində ərazi məsələsi, dövlətin müştərək federal idarəsi, mərkəzi hökumətin səlahiyyətləri barədə açıqlamalar var idi.

Hər iki icma nümayəndələri müzakirələri davam etdirmək üçün BMT Baş Katibinin köməyinə ehtiyac duyurdular.

R.Denktaş və Q.Klerides Brüssel sazişinin nəzərdə tutduğu prinsipləri qəbul edərək 1976-cı il fevralın 17-21-də Vyanada BMT Baş Katibinin iştirakı ilə beşinci mərhələdə görüşdülər. Bu iclasda qəbul edilən prinsiplər aşağıdakılardan ibarət idi:

- altı həftəlik bir müddət ərzində Kipr probleminin bütün istiqamətlərini özündə cəmləşdirən yazılı təkliflərin mübadiləsi
- sərhəd və ərazi tələbləri ilə bağlı istiqamətlərin qanuni tərəflərini müzakirə edəcək komitələrin qurulması (7, 51).

Q.Klerides öz ideyalarına xidmət edən təkliflər hazırlamaq üçün vaxt qazanmaq məqsədilə kiprli yunanların təkliflərini üzə çıxaran altı həftəlik müddət bitmədən on gün əvvəl türk icmasına çatdırmaq barədə R.Denktaşla bir gizli saziş də bağlamış və Makariosa bu barədə xəbərdarlıq etməmişdi.

Bu gizli anlaşmanın ortaya çıxması Kleridesin aprelin 7-də vəzifəsindən istefaya getməsinə səbəb oldu. Onun yerinə isə T.Papadopulos gəldi.

İcmalararası danışıqlar 1977-ci ildə də davam etdirildi. 1977-ci il martın 31-dən aprelin 7-dək Vyana danışıqlarının altıncı mərhələsi keçirildi. Bu görüşdə kiprli türkləri Ümid S.Onan, yunan tərəfini isə T.Papadopulos təmsil etdi.

Bu mərhələdə yunanlar ilk dəfə olaraq ərazinin bölüşdürülməsinə dair təkliflərlə çıxış etdi. Bu təkliflərlə bərabər xəritə də təqdim olundu.

Vyana konfransının altıncı mərhələsində Konstitusiya ilə bağlı məsələlər müzakirə edildi. Lakin irəli sürülən təkliflər heç bir tərəfi qane etmədiyindən məsələnin həlli də nəticəsiz qaldı.

1977-ci il avqustun 3-də Makarios vəfat etdi. Makariosun vəfatından sonra S.Kiprianu rəhbərliyi öz əlinə aldı. Kiprianu BMT Baş katibinin irəli sürdüyü siyasətlə hərəkət etmədi, yəni icmalararası danışıqlara heç də maraq göstərmədi, R.Denktaşla nəzərdə tutulmuş bütün görüşlərdən imtina etdi. Kipr Türk Federativ dövlətini iqtisadi cəhətdən çökdürmək üçün yeni kampaniyaya başladı.

İcmalararası danışıqların qənaətbəxş nəticələr əldə etməsi mümkün olmadığından bütün regionda gərginlik hökm sürürdü. Bu da məsələnin həllini daha da dərinləşdirir və gecikdirirdi. Kipr ətrafında yenidən gərginliyin yaranması sülh və təhlükəsizliyin təmininə mane olurdu.

Beləliklə, ayrı-ayrı illərdə altı mərhələdə keçirilən Vyana danışıqlarının qənaətbəxş nəticələr əldə edə bilməməsi, ilk növbədə tərəflərin bir-birlərinin təkliflərinin qəbul etməməsindən, bir-birinə etibar etməməsindən irəli gəlirdi. Danışıqların uğursuzluğu isə nəinki Kipr adasında, hətta bütün Şərqi Aralıq dənizində gərginliyin davam etməsinə səbəb olurdu.

## ƏDƏBİYYAT


1. Paşayeva Q. Quzey Kıprıs və Kıprıs türkləri. Bakı: Elm və təhsil, 2010, 164 s.
2. Paşayeva Q. Rauf Denktaş: həyatı, mübarızəsi, arzusu, ümidi... Bakı: Elm və təhsil, 2010, 482 s.
3. Гаджиев Ф. Независимость де-факто. Турецкая Республика Северного Кипра. М.: Регнум, 2008, 176 с.

4. Гейдарова С.Дж. Кипрский вопрос и ООН (70-80-е годы XX века) // Журнал Современные гуманитарные исследования. 2008, №5 (23), с.14-16.
5. Necati M.Ertekün. Tarihi perspektif içerisinde Kıbrıs Sorunu, 24-27 Şubat 1984. Girne, «Basında Dış politika və Dış Politika Basını» konulu seminarda yaptığı konuşma.
6. Seyit Yolak.1571-den Günümüze Kıbrıs Türk yönetimleri, KKTC Milli Egitim ve Kültür Bakanlığı Yayınları, Kültür Dizisi. 13 kitap, Lefkoşa, 1989, 226 s.
7. Zehra (Yalçınkaya) Cerrahoğlu. Birleşmiş Milletler gözetiminde Kıbrıs sorunu ile ilgili olarak yapılan toplumlararası görüşmeler (1986-1990). T.C.Kültür Bakanlığı yayınları. Yayınlar dairesi Başkanlığı. Kültür eserleri Dizisi. Ankara, 1998. Kalkan Matbaaçılık, 283 s.
8. Necati M. Ertekün in search of a Negotiated Cyprus Settlement. Lefkoşa, 1981, 127 p.

## ОБСУЖДЕНИЕ КИПРСКОЙ ПРОБЛЕМЫ НА ВЕНСКИХ ПЕРЕГОВОРАХ

**С.Дж.ГЕЙДАРОВА**

**РЕЗЮМЕ**

В статье основное внимание уделено обсуждению Кипрской проблемы на конференциях, проходившие в 1975 г. в городе Вене.

Автор рассматривает переговоры между двумя общинами живших на острове, турецких киприотов и греческих киприотов, направленных на стабилизацию напряженности, появившейся вследствие борьбы между ними.

## DISCUSSION OF THE CYPRUS PROBLEM AT THE VIENNESE NEGOTIATIONS

**S.J.HEYDAROVA**

**SUMMARY**

The article deals with the discussion of the Cyprus problem at the conference in Vienna in 1975.

The author studies the negotiations between two communities living on the island, Turkic Cypriots and Greek Cypriots, directed to the stabilization of tension emerged as the result of the struggle between them.